# ŞEİRİMİZİN CIĞATELİ



***Əkbər ƏLİOĞLU,***
***filologiya elmləri üzrə fəlsəfə doktoru***

***(Əvvəli ötən sayımızda)***

Poetik "mən" təbiətin bahar çağında zirvələrdə, dağ başında, yollarda vüsal ayrılığından özünü itirmiş sevən aşiqə hicran, həsrət, nikbin, inamlı, güvəncli bir məkan göstərir, özü də şux ovqat biçimində.

Çıxmısan dağ başına, udduğun dağ havası,
Sığın, üşütməz səni, dağda qartal yuvası,
Sənin bir günahın yox, sevda şair sevdası,
Acıyıram halına, əcəb işə düşmüşəm,
Axtarma ömrüm-günüm, mənim ürəyimdəsən.

Elə baxdın gözümə, gözlərimə süzüldün,
Elə baxdın üzümə, istəmədən üzüldüm,
Cığatel qələmindən misralara düzüldün,
Daha sənə ölüm yox, bəh, bəh, bəh, cənətdəsən,
Axtarma ömrüm-günüm, mənim ürəyimdəsən.

"Sevgimi sevən adam" gülüş doğuran situasiya üzərində qurulub. Məlum olur ki, poetik "mən"in sevdiyi onu yox, onun sevgisini sevir. Qəribədir, deyilmi? Bəli, bu qəhrəman poetik "mən"in özündən əvvəl doğulmuş sevgisini sevir. İndi neyləyək. Bu sevdaya necə qiymət verək, hansı formanı imzalayaq. Möhür isə poetik "Mən"in öz əlimdədir:

Dayanmışam hüzurunda,
Sevdiyim, bu mən, bu da sən.
Ey sevgimin sevgilisi,
Di get, o sevgin, o da sən!..

Yuxarıda qeyd etmişdik ki, Cığatelin şeiriyyət dünyasını məhəbbət poeziyası təşkil edir. 320 səhifəlik kitabın yarıdan çoxu məhəbbət şeirləridir. Dünya ədəbiyyatında isə məhəbbət mövzusu tükənmək bilmir. Cığatel də ki, təpədən-dırnağa, səsiylə, sözüylə, özüylə başdan-başa poeziyadır, məhəbbətdir. Onun poeziyasında məhəbbətin min-bir çalarlarını görürük, çağdaş dövrümüzün fonunda onun çılpaqlaşmasına, zamanın sərt dönəmlərində ucuzlaşdırılmasını və bunların əsas səbəbkarı olan ictimai həyatın doğurduğu pozğun, ədalətsiz münasibətlər mexanizminə etiraz və üsyankar səsini qaldırır, "İnci", "Özünə vəfalı yar gəzən oğlan" şeirlərilə böyük və təmiz məhəbbətin, namusun, abrın, həyanın, ismətin ucalığını bu eybəcərliklərə sipər qoyur. Elə bu fonda da onun ictimai məzmunlu şeirləri üzə durur. Dünyada, cəmiyyətimizdə baş verən sosial bərabərsizlik, mənəvi aşağılıq, nəfsin törəddiyi qeyri insani münasibətlər, dünyanı öz ağuşunda oynadan siyasi dəllalıq, məfkurəvi eybəcərliklər şairənin qəlb dünyasına bəşəri bir ağrı gətirir. Bu ağrılar isə onun qələmində dil açıb səsini aləmə yaymaq istəyir, çarəsizliyə çarə soraqlayır; kəsərli ittiham, nəsihətnamə və ustadnamə formatında. "İnsandan köçür dünya!", "Açıl sabah", "Adsız varlıqlar", "Hardasan İbn-Sina?", "Ürəyimi yeyirəm", "Bu dünyanın düzəlməyi" və s. kimi şeirlər məhz ictimai məzmunlu olub şair-insan-zaman üçlüyü kontekstində çözələnir, "İnsan əlindən qaçan dünya", "Aradan yerin-göyün pərdəsinin götürüldüyü" zaman, "düzlərin düzlərdə qaldığı", "ağa qara deyildiyi" məkanda köməyə Dədə Qorqud haraylanır, İbn-Sina soraqlanır:

Hardasan İbn-Sina, məlhəmini gətir, gəl,
Zaman məzar içində, dövranımız xəstədir...
Allahu Əkbər deyib, çoxdu haqqı dananlar,
Ahımız kəfən geyib, amanımız xəstədir!

Hardasan İbn-Sina, loğmana loğman gərək,
Adəmə, Həvvaya de, bir yeni insan gərək,
Dəvamız dərd əlində, dərmana dərman gərək,
Cığatel naçar qalıb, dərmanımız xəstədir.

Beləcə şeirin digər bəndlərində cinsi bəlli olmayan xəstə cəmiyyətin yaraları "Ümid şeytan əlində, gümanımız xəstədir...", "Vicdanımız ağrıyır, imanımız xəstədir...", "Böhtanla quyu qazır, kənkanımız xəstədir...", "Təbiət də dəyişib, məkanımız xəstədir...", "Eşq qarışıb işrətə, peymanımız xəstədir..." kimi təqdim olunur. Hər şeydən əli üzülən poetik "mən" əlacsız qalıb "Allaha məktub" yazır. Baxaq görək namədə Allahın yaratdığı varlıqlar, insanlar haqqında nələr söylənilir...

Sürünür torpaq üstə, göyə ucaltdıqların,
Göydə Allahlıq edir, yerdə yaratdıqların,
Ahı yetmirmi sənə, günahsız insanların?
Yatmısanmı, İlahi, hara baxırsan, oyan,
Verdiyin ruhu, canı, insandan alır insan...

İlana ağı verir, zəhərsiz kərtənkələ,
Düşmən edir qardaşı, kafirlər bilə-bilə,
Hər yerdə müsəlmana qurulur fitnə, tələ,
"Dinc oturub", "seyr edir" xristian,
Verdiyin ruhu, canı, insandan alır insan...

Bəlkə heç mələklərin, xəbər gətirmir sənə?
Vuran-vurana qalıb, baş kəsən - baş kəsənə.
O gözəl Varlığını "korlara" göstərsənə,
Tükənib bitmək bilmir, bu vəhşət, bu qətliyam,
Verdiyin ruhu, canı, insandan alır insan...

Cığatel İsaqızının poetik təsərrüfatı mövzu baxımından elə də kasab deyil. Burada Qarabağ olayları, Vətən tərənnümü, Turançılıq ideyası, xalqlar dostluğu kimi mövzuların da yüksək sənətkarlıqla ifadəsinə rast gəlinir. Bu mövzulu şeirlərin arasında "Azərbaycan-Türkiyə" və "Azərbaycan dünyaya Günəş kimi doğacaq!" şeirləri daha əlamətdardır. Bu şeirlər sanki orator xalq şairlərinin qələmindən çıxmışdır. Şairənin bu şeirlərdə ürək döyüntülərini, etiraz çoşğunluğunu, Vətənin yüksəliş yollarına ağuş açmasını, milli qürur duyğusallıqlarını görməmək, göz yummaq ən aşağısı namərdlikdir, haqsızlıq olardı. Vətən taleyi ilə yaşamaq, dünyanın rəzalətlərinə hayqırış göstərmək, özünü təbiət övladı elan etmək onun poetik şəxsiyyətinin vəsiqəsi və təsdiqidir. Bu ruh, bu ovqat, şeirlərindəki fikir mükəmməlliyi, poetik vüsət onu çağdaş şeirimizin bəlkə də məqiqantı səviyyəsində göstərir, özü də xalqın sevdiyi, xalqın şairi kimi. Bu varlıq onun ədəbi xisləti, ədəbi görkəmi və şeirdən tökülmüş ruh aləminə çox yaraşır. Cığatel poeziyası çay axarlı, dəniz tutumlu bir şeiriyyət dünyasıdır. Bu dünyanın qapısını döyən hər kəs oradan bədii-estetik zövq alacaq, mənəvi aləmini zənginləşdirəcək. Biz buna inanırıq. Təkcə elə "Azərbaycan-Türkiyə" və "Azərbaycan dünyaya Günəş kimi doğacaq!" şeirlərindəki tərənnüm elə mükəmməl dil qatları, yüksək coşqu duyğuları ilə mayalanıb ki, onların adının qarşısına "klassika" yazmamaq mümkün deyil. Adam özünü bu şeirləri bütöv halda təqdim etməkdən saxlaya bilmir. Lakin "Azərbaycan-Türkiyə" şeirindən iki bənd təqdim etməklə kifayətlənmək gərəkdir. Necə deyərlər: "birin yüz olmasın...":

Kim endirər qayalardan qartalı,
Dağ qartalın, qartal dağın halalı.
Qoşa bayraq, bayrağında hilalı,
Dünya heyran bu dostluğa, birliyə,
Ayrılmazdır, Azərbaycan-Türkiyə...

İki könül bir ürəkdə bəslənər,
Qarabağdan Çanaqqalam səslənər.
Aciz qalar qarşısında fitnələr,
Kim nə deyər bu sönməyən sevgiyə,
Ayrılmazdır, Azərbaycan-Türkiyə...

Qeyd edək ki, şairənin "Çanaqqala savaşı, qəhrəmanlıq tarixi" şeiri də yüksək sənətkarlıqla yazılmışdır. Kitabda şairənin avtobioqrafik səciyyəli "Tanrı fürsəti" adlı poeması da özünə yer almışdır. Məsnəvi formasında yazılmış bu əsər poetik ifadə baxımından mükəmməldir, oxunaqlıdır. Klassiklərimizin mənəvi ənənələrini müəyyən qədər özündə sərgiləyə bilib. Vurğun kəndi və Vurğun şeiriyyəti onun ruhunu poetik nəfəslə doldurması, acı ötən həyatına yeni rəng, məna qatması təsirli dil qatlarıyla təqdim olunaraq öz oxunaqlığını təmin etmişdir.

Öz üslubunu yaratmaq, deyimlərində bənzərsiz olmaq, poetik fiqur oynaqlığında göz oxşamaq, könül dindirmək, forma və məzmun vəhdətinə yüksək səviyyədə nail olmaq, nəhayət, mövzu zənginliyi və ideya mükəmməlliyinə sahib çıxmaq - yaradıcı şəxsiyyətin mənəvi aləminin dərinliyini, əsərlərinin yaşarılığını təmin edən başlıca amillərdir. Fəqət fitri istedad və zəhmətsevərlik olmasa, eləcə də sənətə, poeziyaya vurğunluq onun fitrətində görünməsə söylədiklərimizə sahib çıxmaq, əsl ədəbiyyat kimi əsl ədəbiyyat yaratmaq mümkün deyil. Xüsusən də bu yaradıcı şəxsiyyət dünya ədəbi təcrübəsini izləyəndə, onun klassik nümunələrindən örnəklənəndə, təbii ki, bu istedad sahibinin irsi də zəngin və dərin, təsirli və yaşarı olacaqdır. Biz Cığatel xanımın bədii və elmi mütaliəsinə bələd deyilik. Yazdığı poemadan görürük ki, o, orta məktəbi yalnız bir "4" istisnalığı olmaqla "əla" qiymətlərlə bitirmişdir. İsrarla bildirmək istəyirik ki, bu son kitabıyla göstərilənləri öz yaradıcılığında ehtiva etdirə bilmişdir. Bu baxımdan onun simasında çağdaş ədəbiyyatımızın öncül nümayəndəsini görə bilirik. Şeirlərindəki yeni izafətlər, orijinal poetik fiqurlar, fikrin metaforik təbiətinin zənginliyi və çəkərliyi, məzmun gözəlliyi bu nümayəndənin iti yaddaşlı obrazını gözümüz önündə canlandırır. Elə buradaca onun zəngin poetik deyimlərindən, qulağa təzə çatan eşidimlərindən sitatlar gətirmək yerinə düşərdi:

Ölüb sevgilimin əlində sevgim,
İlhamım sevgimin yasına gəlib,
Səssiz harayların ərşi tərpədib,
Mələklər qəlbimin səsinə gəlib.

* * *

Nura dönək, al şəfəqə bələnək,
Sevənlərin sevgisinə çilənək,
Göydən yerə damla-damla ələnək,
Çaya düşək, saf sularda görüşək.

* * *

Gəl, indi hardasan, yuxu yozanım?
Məni bir yuxuda qoyub getmisən,
Daşıb gözlərimdən, göz yaşlarımda
Bütün yuxuları yuyub getmisən!...

* * *

Bir yandan qəm yükü, bir yandan həyat,
Əlim qabar tutdu, dabanlarım çat...
İşlədi qəlbimə daban çatlarım,
Varaq-varaq oldu beyin qatlarım.

* * *

Gündüzlər işlədim, gecələr yazdım,
Yerlərdə bulundum, göylərdə azdım.
Göydən ulduzları dərdim, gətirdim,
Ağ kağız üstündə şeir bitirdim.

Beləcə, şairənin şeir təsərrüfatından onlarla nümunələr gətirmək, yarpaqlar dərmək mümkündür. Bir az da məcarlar sisteminə baş çəkək, şairənin söz bağçasından çiçəklər dərib alışan ruhumuzla səpək sətirlərə: "Eşq məzarlığı olan ürək", "Gözlə görünməyən bir Eşq Heykəlinin aşiq qəlbində Minbər olması", "Eşqə Bismillah deməşəm", "Sakit gecə olan dodaqlar", "Cığatel şeirinin xəbəri, mübtədası olan aşiq", "Pünhan həqiqət, aşkar röya", "Ayaq izinə söykənmiş gözün torpağı suvarması", "Sevgi atəşində alışmış kül!", "Ən gözəl söz olan göz", "Əlçim-əlçim yel darayan tel", "Sevgidən yazılan yalanın ilhama xəyanəti", "Yerdən qanı sıçrayan ürək", "Sevmək də bir ibadətdir", "Ehsan paylayan sevgi yası", "Vidadan asılan ruh", "Sevginin tər libasında, köhnə çulunda olmaq", "Yanam, siqaran olam, asılam dodağından", "Rəngi sarı həsrət", "İlhamı şux, yazını asta yazan Allah", "Şeirin üzündəki rübəndə qurbanlıq", "Sonda "Əlhəmdülillah", əvvəldə "Bismillah"ım Allah", "Gözlərdə yuyunmaq", "Daş üstündə bitən çiçək olmaq", "Yeddi min, yeddi yüz yetmiş yerindən bölünüb çat vermək", "Düzəni yazıq dünya nağılı", "Köhnə bəy, hər havaya oynamayan qoşma", "Dəbi, libası, ənənəsi, adəti olan qoşma", "Məqbul-məchul kərpic ömür", "Müsbəti verib mənfi təsir alan ömür", "Ürəyində min "Bermud üçbucağı olan ömür"", "Ürəklərdə köz qoyub gedən söz", "Ağıl başa çəkər, ürək aşağı, iradə, etiqad bir kəndir bağı", "Əldən uçurulan huşun dost olması", "Savabdan günaha, bəndədən Allaha qədər olan sevgi", "Sevgi buludu", "Şeir Allah kəlamı, şair Haqqın mirzəsi", "Qara mürəkkəblə ağ varaq üstə qəbir qazılması", "Ağıllı dəliyəm, dərsim-ibrətim, Bəhlul kimi "divanədən" almışam", "Yarpaqsız budaqlar kimi üşüyən ömür", "Əlvida söyləyən dodaqlar - ömrün payızı", "Davası başından, ağıldan küsən, naza baxmayan ürək", "Şeir havasında Məşhərə çatmaq", "Anası yollara bükülüb, xətri yollara tökülüb qalan qız", "Torpaq kimi şumlanan, duası Haqqa alqış şair", "Buluddan örpəkli dağlar", "Söz ömrü yaşayan insan", "Tanrıdan Yer üzünə əmanət Türk" və s. Əsl poetik istedadın sinəsindən, təfəkkürün dərin qatlarından bişib gələn incilərdir bu nümunələr, mən də şairəm söyləyən "əsl" şairlərə tərsinə sillədir bu fikir dünyası, hər kəsə yerini göstərən mayakdır Cığatel şeiriyyəti, bədii-estetik düşüncə ağacıdır Cığatel şeiriyyəti, insanlığa, cəmiyyətə xidmətdə bulunan bir quldur Cığatel şeiri. Biz bu yazımızda həqiqi düşüncə ağacından danışdıq, insanlığa ucalıq gətirən bir quldan söhbət açdıq, poeziyamızın həm cığası, həm də teli olan şairə Cığatelin qəlb dünyasını vərəqlədik. Oxuduq, oxuduq... "Hər gizli xəzinədən bir dürr qopardıq".

**08.03.2024**